# Qəbələ sosial-iqtisadi inkişafın yeni mərhələsinə doğru irəliləyir

## Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2016-cı ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 6-cı səhifədə).

Cari ilin ötən dövrü ərzində Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində xüsusi qayğıya ehtiyacı, valideyn himayəsindən məhrum olan və təhsildə fərqlənən uşaqların istirahət və əyləncəsi təşkil edilmişdir. Bununla yanaşı mərkəzin iş prinsipinə uyğun olaraq rayonun kənd və qəsəbələrində müxtəlif mövzularda (“Qızların təhsildən yayınmasının qarşısının alınması”, “Erkən evlilik və onun fəsadları”, “Narkomaniya-əsrin faciəsi”, “Sağlam həyat tərzi və sağlam ətraf mühit”, “İnsan hüquqları və insan alveri”) 21 maarifləndirici və kütləvi tədbirlər keçirilmiş, tədbirlərdə 1907 nəfər icma üzvü iştirak etmişdir.

**Hörmətli tədbir iştirakçıları!**

Cənab İlham Əliyevin Nazirlər Kabinetinin iclasında qeyd etdiyi kimi son illər aqrar sahənin inkişafına dövlət qayğısının artması nəticəsində bütövlükdə ölkə üzrə bu sahədə xeyli irəliləyiş nəzərə çarpır. Dövlət başçısının tapşırığı ilə rayonlarda kənd təsərrüfatı işlərinin gedişinin, fermerlərin və torpaq mülkiyyətçilərinin təklif və istəklərini, həmçinin aqrar sektorun inkişaf prespektivlərinin öyrənilməsi məqsədilə yaradılan işçi qrupu Qəbələdə olmuş, rayonda fəaliyyət göstərən emal müəssisələrində və əkin sahələrində vəziyyəti öyrənərək rayon icra hakimiyyətində geniş müşavirə keçirmişdir.

Hazırda rayonumuzun kənd təsərrüfatı sahəsində də əhəmiyyətli dəyişikliklər hiss edilir. Bu sahədə cənab Prezidentinin “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Sərəncamda kənd təsərrüfatı məhsulları istehsalçılarına büdcə vəsaiti hesabına yardımların verilməsi nəzərdə tutulur. Həmin Sərəncamın rayonda icrası ilə əlaqədar olaraq 2016-cı ildə 2184 nəfər torpaq mülkiyyətçilərinə dövlət büdcəsinin vəsaiti hesabına 1.705.949 manat yardım hesablanmış və hazırlanmış sənədlər Respublika Komissiyasına təqdim olunmuşdur. Yaxın vaxtlarda həmin vəsait ödəniş kartları vasitəsilə sahiblərinə çatdırılacaqdır. Bundan əlavə rayon komissiyası tərəfindən cari ilin sentyabr ayında təkrar əkinlərə görə məhsul istehsalçılarına 17.269 manat yardım hesablanmış və həmin sənədlər də Respublika Komissiyasına təqdim olunmuşdur.

Rayonun iqtisadiyyatının əsasını taxılçılıq təşkil edir və 2016-cı ilin məhsulu üçün 2015-ci ilin payızında 22510 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir ki, onun da 16010 hektarını buğda, 6500 hektarını isə arpa sahələri təşkil etmişdir. Taxıl sahələri biçilmiş və 71081 ton məhsul istehsal olunmuşdur. Hər hektardan məhsuldarlıq 31,6 sentner təşkil etmişdir.

Torpaq sahibləri tərəfindən cari ilin məhsulu üçün, 1054 hektar kartof, 1992 hektar tərəvəz əkilmişdir. İndiyədək həmin sahələrdən 12648 ton kartof, 17928 ton tərəvəz məhsulu toplanmışdır.

Qeyd etmək istəyirəm ki, son illər rayonun kənd təsərrüfatı bitkilərinin əkin quruluşunda xeyli dəyişiklik aparılıb. Belə ki, heyvandarlığın inkişafını nəzərə alaraq yem tələbatının ödənməsi üçün taxıl sahələri 1000 hektara qədər azaldılmış və həmin sahələrə yem bitkiləri əkilmişdir. Həmçinin digər ərzaq bitkilərinin əkini artırılmışdır. Mütərəqqi metodlar tətbiq edilərək əkin sahələrinin genişləndirilməsinə deyil, məhsuldarlığın artırılmasına diqqət artırılmışdır.

Torpaqların münbitliyinin, gübrələrə və dərman pereparatlarına olan tələbatın qabaqcadan öyrənilməsi bitkiçilikdə yüksək məhsuldarlığa təsir edən amillərdən biridir. Doqquz ay ərzində rayonda mövcud olan əkin sahələrində torpağın münbitliyini öyrənmək məqsədilə 4520 ədəd torpaq nümunəsi götürülərək laboratoriyada analiz edilmiş və nəticələri barədə torpaq mülkiyyətçilərinə məlumat verilmişdir.

Keçən dövr ərzində ziyanvericilərə qarşı 690 hektar, alaq otlarına qarşı mübarizə məqsədilə isə 4764 hektar sahə dərmanlanmışdır.

Meyvəçilik və üzümçülük əhəmiyyətli sahələr hesab edildiyindən son illər rayonumuzda bu istiqamətdə çox böyük işlər görülmüşdür. Hazırda 6854 hektar bağ sahələri, 509 hektar üzüm plantasiyaları mövcuddur. Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında cənab İlham Əliyevin qeyd etdiyi kimi İndi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. İxrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

Bu baxımdan fındıqçılığın da mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda bu ildən etibarən əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. Artıq bu istiqamətdə işlərə başlanılmışdır.

Uzun fasilədən sonra rayonumuzda bu il barama istehsalına başlanılmış və 389 kq barama istehsal edilərək, kiloqramı 8 manatdan qəbul məntəqələrinə təhvil verilmişdir. Növbəti ildə dövlət tərəfindən barama istehsalçılarına subsidiya veriləcəyi nəzərə alınaraq, istehsalının artırılması məqsədi ilə yeni gər bağlarının salınması nəzərdə tutulmuşdur.

Cari ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinə müxtəlif kənd təsərrüfatı bitkilərinin toxumları gətirilərək yoxlanılmış və yararlılığı barədə müvafiq rəylər verilmişdir. Rayonda fəaliyyət göstərən 5 özəl toxumçuluq təsərrüfatlarının yetişdirdiyi 1994 hektar toxumluq əkin sahələrində aprabasiya işi aparılmış və hazırda taxıl nümunələrinin analizinin aparılması işləri davam etdirilir.

İlin əvvəlindən Dövlət Meşə Fondu torpaqlarında 30 hektar meşə əkini aparılmışdır. Meşə əkinin 6 hektarı az qiymətli və aşağı məhsuldar meşələrin rekonstruksiyası hesabına apailmışdır.

Rayonda kənd təsərrüfatı işlərinin həyata keçirilməsi üçün 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir. Bundan əlavə 410 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayon üzrə 80 ədəd taxılyığan kombayn, 53 ədəd tırtıllı və 444 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir.

Heyvandarlıq sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Hazırda rayonda iri buynuzlu mal-qara 46827 baş, qoyun-keçilər 189315 baş, donuzların sayı 1093 baş olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsulları istehsalı da xeyli artmışdır. Belə ki, ət istehsalı 4589 tona, süd istehsalı 29761 tona, yumurta istehsalı 8 milyon 267 min ədədə, yun istehsalı isə 462 tona çatdırılmışdır.

Rayonumuzda 2 müasir heyvandarlıq kompleksləri və bir ədəd kiçik həcimli heyvandarlıq təsərrüfatı fəaliyyətə başladıqdan sonra əhalinin ətə və südə olan tələbatının ödənilməsində müsbət dəyişikliklər baş vermişdir.

Mal-qaranın damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün fəaliyyət göstərən 6 süni mayalama məntəqəsində doqquz ay ərzində 4100 baş inək və düyələrdə süni mayalama aparılmış və həmin heyvanlardan 1527 baş bala alınmışdır. Malqaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova subsidiya verilməsi nəzərdə tutulmuşdur.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizootik durum demək olar ki, sabitdir.

Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun istehsalçıları fəal iştirak etmiş, 2016-cı ilin doqquz ayı ərzində yarmarkalarda 26,5 ton tumlu, 28 ton qərzəkli meyvələr və 2,5 ton müxtəlif tərəvəz məhsulu satılmışdır.

Respublikamızda aqrar sahəyə dövlət qayğısının daim artması, bu sahədə rayonda görülən işlər bizə deməyə əsas verir ki, rayonumuzun aqrar sahəsi və bu sahədə görülən işlər yüksək templərlə inkişaf edəcəkdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2016-cı ilin doqquz ayında vətəndaşların müraciətlərinə baxılması işi də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından geniş istifadə olunmaqla vətəndaşların bütün müraciətlərinə baxılması təmin edilmişdir. Cari ilin birinci yarısı ərzində rayon icra hakimiyyətinə ümumilikdə 774 ərizə daxil olmuşdur. O cümlədən aidiyyəti üzrə ünvanlanan 289 ərizə Azərbaycan Respublikası Prezidenti Administrasiyasından, 26 ərizə Milli Məclisdən, 10 ərizə Nazirlər Kabinetindən, 77 ərizə mərkəzi icra hakimiyyəti orqanlarından, 372 ərizə isə vətəndaşlardan daxil olmuşdur. Ərizələrin məzmunu əsasən vətəndaşların mənzillə təmin olunması, fərdi yaşayış evinin təmir edilməsi, onların müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımının təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlmə və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavab verilmişdir.

2016-cı ilin birinci yarısında vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, 9 ay ərzində 815 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir. Eləcə də 2016-cı ilin ötən dövrü ərzində rayon icra hakimiyyəti başçısının 34 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 3688 nəfər iştirak etmişdir. Onlardan 259 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər. İrəli sürülən təkliflərin və müraciətlərin 233-ü həll edilmiş, 14-ü ilə bağlı müvafiq izahat işi verilmiş, 12 məsələnin həlli isə respublikanın digər aidiyyəti təşkilatları tərəfindən icra edilməli olduğuna görə həmin tələblərlə əlaqədar onlara müraciətlər ünvanlanmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalrının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, subartezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli tədbir iştirakçıları!**

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində cənab İlham Əliyev ilin sonuna qədər bütün məsələlərə ciddi diqqət göstərilməsi, dövlət investisiya proqramı və infrastruktur layihələrinin icra olunması istiqamətində mühüm tapşırıqlar vermişdir.

2017-ci ilin dövlət büdcəsinin sosialyönümlü olacağını və investisiyalar üçün kifayət qədər vəsait nəzərdə tutulacağını qeyd edən ölkə başçısı Azərbaycanda biznes mühitinin yaxşılaşdırılmasına, kənd təsərrüfatının, xüsusilə pambıqçılığın, tütünçülüyün, üzümçülüyün, taxılçılığın, bağçılığın, çayçılığın və heyvandarlığın, həmçinin emal sektorunun, sənaye potensialının yüksəldilməsinə diqqətin artırılacağını, sahibkarlığın inkişafına və biznes mühitinə münbit şərait yaradılacağını, makroiqtisadi sabitliyə ciddi fikir veriləcəyinə, təbii resurslardan daha səmərəli istifadə olunacağını, turizm infrastrukturunun daha da inkişaf etdirilməsinə diqqət göstəriləcəyini bildirmişdir.

Cənab İlham Əliyev 2017-ci ildə bütün sahələrdə sosial infrastruktur layihələrinin icra ediləcəyini, yeni məktəblərin, xəstəxanaların, olimpiya mərkəzlərinin, məcburi köçkünlərdən ötrü yeni binaların tikiləcəyini qeyd etmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2016-cı ilin doqquz ayı ərzində rayonumuzda görülən işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə sizə qısa məlumat verdim. Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti əlamətdar və tarixi hadisələrlə zəngin olan 2016-ci ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrini, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.